**BSU-da "İnklüziv təhsildən inklüziv cəmiyyətə" (İTİC-2024) II Beynəlxalq elmi-praktiki konfransı keçirilib.**

**16.04.2024**



**Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyevin nitqi**

Hörmətli həmkarlar!

- Cənab Bəxtiyar Əliyev
- Cənab Hidayət Abdullayev
- Cənab Elçin Babayev
- Cənab Bəxtiyar Aslanbəyli
- Beynəlxalq spikerlər
- BDU, ADA, ADPU, ADU, Psixologiya Elmi Tədqiqat institutundan olan moderatorlar və iştirakçılar
- SİM və autizmli uşaqlarla işin təşkili üzrə ixtisaslaşmış ictimai təşkilatlar
- Cənab Həsən Həsənli və cənab Məhəmməd Abdullayevin salamlarını çatdırır, onları təmsil edən həmkarlarını salamlayıram!

**Azərbaycanda inklüziv təhsilin inkişafı, əllilliyi olan insanların təhsili sahəsində mühüm işlər görülmüş, bu istiqamətdə müvafiq qanunvericilik bazası formalaşmışdır.** Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 14 dekabr 2017-ci il tarixli 3498 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” həyata keçirilməkdədir. Dövlət Proqramının vəzifələrinə aid edilənlər sırasında sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili ilə bağlı ***pedaqoji kadrların hazırlanması və ya əlavə təhsilə cəlb olunması*** məsələləri yer almışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 11 fevral tarixli 43 nömrəli Qərarı ilə “İnklüziv təhsilin təşkili Qaydası təsdiq edilmişdir.

**Hörmətli həmkarlar**,

21-ci əsrin ən narahatedici tendensiyalarından biri sağlamlıq imkanları məhdud (SİM) uşaqların sayının durmadan artmasıdır. **UNİCEF-in məlumatına əsasən sağlamlıq imkanlarından məhdudluq qlobal səviyyədə**

**təhsil üçün ən böyük maneələrdən birini təşkil edir**. Məlumdur ki, ölkəmizdə bu uşaqların təhsilinin təşkili istiqamətində mühüm işlər aparılmaqdadır. İnklüziv təhsilin təşkilinə dair Azərbaycanın həyata keçirdiyi nümunə cəmiyyətin müxtəlif maraq qruplarının SİM uşaqların təhsil və təlim prosesinə cəlb edilməsi istiqamətində mühüm addımların atıldığını göstərir. Bu istiqamətdə ölkəmizin Birinci Vitse Prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi olaraq qeyd edilməli, Fondun sağlamlıq imkanları məhdud uşaqların təhsilinin təşkili məqsədi ilə təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının gücləndirilməsi, SİM uşaqlar üçün internat və xüsusi məktəblərin əsaslı təşkili istiqamətindəki davamlı fəaliyyəti vurğulanmalıdır. İnklüziv cəmiyyətin formalaşmasında ali təhsil müəssisələrinin yerinin nədən ibarət olması məsələsi **Konfransın məqsədini** təşkil edir. BSU-nun "İnklüziv təhsildən inklüziv cəmiyyətə" **layihəsinin məramı** pedaqoji kadr hazırlığı prosesində ali təhsil müəssisəsinin üzərinə düşən fəaliyyətlərin icrasından ibarətdir.

**Hörmətli həmkarlar!**

Pedaqoji kadr hazırlığının aparıldığı ali təhsil müəssisələri istər kadr hazırlığı kontekstində, istərsə də ömürboyu öyrənmə prinsipləri əsasında müəllimlərin əlavə təhsil imkanları vasitəsi ilə bilik və bacarıqlarının inkişaf etdirilməsi sahəsində mühüm funksiyaya malikdirlər. Məlumdur ki, hər iki vəzifə Dövlət Proqramında qarşıya qoyulmuş məsələlərdəndir. Ali təhsil səviyyəsinin və müvafiq ixtisasın təlim nəticələrinə uyğun olaraq **səriştə əsaslı kadr hazırlığının həyata keçirilməsi,** məzmunun ixtisasın və əmək bazarının tələblərinə uyğun davamlı şəkildə inkişafı və tətbiqi, məzmunun yaradılmasında cəmiyyətin dinamik inkişafına çevik reaksiyanın təmin edilməsi bu sırada mühüm yer alır. (**Səriştə əsaslı kadr hazırlığı).**

Ali təhsil müəssisələri konkret ehtiyaclar və ya hədəflər üzrəindən davamlı **tədqiqatlar aparmağı təmin etməli, təlim və tədris prosesini bu tədqiqat nəticələrinə uyğunlaşdırmalıdırlar**. İnklüziv təhsil, inklüziv pedaqogika və bu kimi istiqamətlər üzrə ali təhsil müəssisələrində elm yaratma və elmi-pedaqoji kadr hazırlığı prosesi planlı və sistemli xarakter daşımalıdır. Bilik yaratma prosesi ilə yanaşı elm yaratma və elmi tədqiqatın nəticələrinin düzgün tətbiqi də mühüm rol oynayır. (**Tədqiqatlar və elm yaratma).**

Məlumdur ki, öyrənmə prosesi normativ təhsil ili çərçivəsi ilə məhdudlaşan proses deyildir. İstər cəmiyyətin, istərsə də elm və texnologiyanın sürətli inkişafı öyrənməyə çevik və yerində **əlavə ömürboyu öyrənməni** tələb edir. Bu baxımdan istər ali təhsil müəssisəsinin məzunlarının sonrakı peşəkar inkişafı baxımından, istərsə də inklüziv

təhsil prosesinə cəlb edilmiş digər mütəxəssislərin **əlavə öyrənməsinin** təşkili ali təhsil müəssisələrinin fəaliyyətinin tərkib hissəsini təşkil edir. (**Ömürboyu öyrənmə, təlimlər və əlavə təhsil).**

Öz profilləri və həyata keçirdikləri təhsil proqramları çərçivəsində bütün maraq qrupları, xüsusi ilə müəllimlər və ali təhsil müəssisələri arasında əlaqələndirmənin təmin edilməsi, inklüziv təhsilinin inkişafı, yeni imkanların, o cümlədən məzmun və bacarıqların inkişafının müzakirəsi məqsədi ilə ali təhsil müəssisələri arasında əlaqələndirmənin təşkili mühüm əhəmiyyət kəsb edir. Şəbəkələşmə ən yaxşı təcrübələrin öyrənilməsi və yayılması üçün mühüm platforma rolunu oynaya bilər. Müxtəlif seminarlar, dəyirmi masa müzakirələri və tematik konfranslar bu istiqamətdə mühüm alətlərdir. (**Əlaqələndirmə və şəbəkələşmə funksiyası).**

**İTİC Konfransı da yuxarıda qeyd edilən məsələlərin müzakirəsi və inkişafı baxımından üzərinə mühüm missiya götürmüş, ali təhsil müəssisələri və ümumitəhsil müəssisələrində çalışan həmkarları bir araya gətirməklə inklüziv təhsilin təşkili sahəsində məzmun, tədqiqat və əlavə öyrənmə imkanlarının genişləndirilməsinə xidmət edir.**

**Hörmətli həmkarlar,**

Bakı Slavyan Universitetinin "BSU 2030: Strateji İnkişaf Planı"na uyğun olaraq universitetin inklüziv təhsilin təşkili, bu sahədə məzmunun inkişafı, səriştə əsaslı kadr hazırlığı və əlavə təhsilin təşkili, eləcə də inklüziv iş mühiti sahəsində ölkəmizin ali təhsil müəssisələri arasında qabaqcıl yerə sahib olmağı hədəfləyir. Bakı Slavyan Universiteti davamlı olaraq müxtəlif maraq qrupları ilə keçirdiyi tədbirlər ilə universitetin inklüziv təhsilin müzakirə məkanlarından birinə çevirilməsini qarşıya məqsəd qoymuşdur. Yalnız cari ilin aprel ayında keçirilən 20-dən çox tədbir məhz bu məqsədə xidmət edir.

Səriştə əsaslı kadr hazırlığı və məzmunun inkişafı istiqamətində universitetdə davamlı işlər həyata keçirilir, BSU nəzdnində fəaliyyət göstərən Məktəb-Lisey Kompleksi ilə pedaqoji fakültələr arasında fəaliyyət planları bu istiqamətdə fəaliyyətin səmərəli təşkilinə xidmət edəcəyi gözlənilir.

2022-ci ilin aprel ayından etibarən Bakı Slavyan Universitetində "İnklüziv təhsildən inklüziv cəmiyyətə" layihəsi həyata keçirilir. Layihənin məqsədi Bakı Slavyan Universitetində pedaqoji kadr hazırlığı prosesində inklüziv təhsil üçün öyrənmə nəticələri və onlara uyğun bilik və bacarıqların formalaşdırılması, eləcə də bu istiqamətdə məzmunun və öyrənmənin daha səmərəli təşkili məqsədi ilə müxtəlif maraq qruplarının əlaqələndirilməsinə töhfə verməkdir.

Layihənin birinci dövrü 2022-ci ili əhatə etmişdir. Bu dövrdə Bakı Slavyan Universitetində müxtəlif maraq qrupları, xüsusi ilə SİM uşaqlarla çalışan ictimai təşkilatların iştirakı ilə məlumatlandırma tədbirləri keçirilmiş, ali təhsil müəssisələrinin mütəxəssisləri ilə müzakirələr aparılmışdır. 15 aprel 2022-ci il tarixində isə ilk dəfə olaraq "İnklüziv təhsildən inklüziv cəmiyyətə" konfransı təşkil edilməklə inklüziv təhsil sahəsində ali təhsil müəssisələri arasında ilk geniş müzakirə platforması yaradılmışdır. Ümumitəhsil müəssisələrində və ATM-lərdə çalışan 300-dən çox müəllimin iştirakı ilə keçirilən birinci konfrans müəllim, mütəxəssis və tədqiqatçıların böyük marağına səbəb olmuşdur. Konfrans çərçivəsində müxtəlif ixtisaslarda təhsil alan tələbələr üçün peşəkarlar tərəfindən təlimlər həyata keçirilmişdir.

Bu dövr ərzində Bakı Slavyan Universitetində kadr hazırlığının təşkili istiqamətində yeni qərarlar verilmiş, 2022-2023-cü tədris ilindən başlayaraq "Korreksiyaedici təlim" və "Psixologiya" ixtisasları üzrə qəbul həyata keçirilməyə başlamışdır. Qeyd olunmalıdır ki, "Təhsildə sosial psixoloji xidmət" ixtisası üzrə əlavə təhsil istiqamətində də marağın böyük olduğu müşahidə edilməkdədir.

Layihənin ikinci dövrünü təşkil edən 2023-cü il ərzində əsasən regional əlaqləndirmə görüşləri keçirilmiş, yerlərdən olan həmkarların iştirakı ilə müzakirələr təşkil edilmişdir. Bu dövr ərzində Elm və Təhsil nazirliyinin dəstəyi ilə regionlarda yerləşən ümumitəhsil müəssisələrinin pedaqoji heyətləri ilə sıx əməkdaşlıq qurulmuşdu. "Inklüziv təhsilə növbəti addım" adı altında dörd regional dəyirmi masa təşkil edilmiş, müxtəlif səviyyələrdə inklüziv təhsillə bağlı dəyərləndirilmənin aparılması məqsədi ilə sorğular aparılmışdır. Astara, Biləsuvar, Şamaxı və Şəmkir şəhərlərində təşkil edilən dəyirmi masalarda müvafiq regionlar üzrə təhsil idarələrinin rəhbərləri, məktəb direktorları, müəllim və psixoloqlardan ibarət təxminən 300 nəfərin iştirakı ilə vorkşoplar təşkil edildi.

Psixologiya Elmi Tədqiqat İnstitutunun birgə təşkilatçılığı ilə 2023-cü ilin iyunda Bakı Slavyan Universitetində keçirilmiş "Psixologiya Zirvəsi" konfransında da inklüziv təhsil və SİM uşaqlarla işin təşkili əsas mövzular sırasında yer almışdı.

Qarşımızdakı dövrdə müəllim hazırlığında məzmunun inkişafı və səriştə əsaslı kadr hazırlığı prosesində əmək bazarının tələblərinin nəzərə alınması ilə məzmunu inkişaf etdirmək, bu istiqamətdə pedaqoji tədqiqatları gücləndirmək planlaşdırılır.

Ənənəvi olaraq ümumdünya autizm maarifləndirmə aylığı çərçivəsində keçirilən ikinci "İnklüziv təhsildən inklüziv cəmiyyətə" konfransı ABŞ, Belarus, Polşa və Özbəkistandan olan həmkarların iştirakı ilə keçirilir. Bu gün qeyd edilən ölkələrdən olan həmkarlarımızı bu möhtəşəm zalda bir daha salamlamaqdan məmnunluq duyuram.

Son illər ərzində bizimlə sıx işləyən "Birgə və Sağlam" İB, "House of Dreams", Psixologiya Elmi Tədqiqat İnstitutunu və digər təşkilatları xüsusi olaraq vurğulamaq istəyirəm. Bildiyimiz kimi, bu istiqamətdə RİİB-in dayanıqlı fəaliyyəti ali təhsil müəssələri üçün mühüm platformaya çevrilmişdir. Bu istiqamətdə əməkdaşlıq imkanları üçün RİİB-ə təşəkkür edirəm.

Qeyd etdiyim kimi, ötən dövr ərzində regional təhsil idarələri ilə birlikdə dəyirmi masalar və seminarların keçirilməsində, eləcə də bu günkü konfransın təşkilində ETN-nin dəstəyi əvəzsizdir. Fürsətdən istifadə edərək bir daha ETN-ə və şəxsən hörmətli Emin Əmrullayevə öz minnətdarlığımı bildirirəm.

**Əziz dostlar,**

Aprelin 19-da Qazax şəhərində konfransımızın regional bölməsinin Bakı Dövlət Universiteti ilə birgə keçirilməsi planlaşdırılır və regiondan olan müəllimlərin geniş iştirakını nəzərdə tutur. Bir daha həmkarım rektor Elçin Babayevə və komandasına dərin təşəkkürümü bildirirəm!

Çıxışımın sonunda "Birgə və Sağlam" İB-nin üzvlərinin bizə təqdim edəcəkləri konsert proqramına görə qrupun bütün üzvlərinə öz təşəkkürümü bildirirəm!

**Bir daha hər birinizi Bakı Slavyan Universitetində salamlayır, Konfransın işinə uğurlar arzu edirəm!**